# BAKI ŞƏHƏRİ XƏTAİ RAYON MƏHKƏMƏSİNƏ

**İddiaçı:** ____________________________________________oğlu
Ünvan: ___________________(burada qeydiyyat ünvanı göstərilməlidir)_____
Faktiki yaşadığı ünvan: ____________________________________
Yazışma üçün ünvan:_______________________________________
Email ünvan: ___________________________________________
Əlaqə tel. nömrəsi : _______________________________________

**Cavabdeh:** "_____________________________________" şirkəti
Ünvan:___________(burada hüquqi ünvan və ofis ünvanları göstərilir)________
Elektron ünvan: _________________________________________
Əlaqə tel.nömrələri: ______________________________________

## İDDİA ƏRİZƏSİ

*(Öhdəliyin pozulması ilə əlaqədar vurulmuş ziyanın ödənilməsi tələbinə dair)*

### Faktiki hallar

Cavabdeh "_______________" şirkəti ilə mənim aramda ___________ tarixdə bağlanmış podrat müqaviləsinə əsasən, yeni mənzilim üçün bir ədəd giriş (dəmir) qapısının və 6 ədəd daxili taxta qapının cavabdeh tərəfindən hazırlanaraq təhvil verilməsini sifariş etmişəm.

Sifariş etdiyim əşyaların dəyəri - dəmir qapı 1200 manat, 6 ədəd daxili taxta qapılar 3000 manat, cəmi 4200 (dörd min iki yüz) manat təşkil edir. Müqavilə şərtlərinə görə, mən sifariş etdiyim əşyaların qiymətinin ümumi məbləğinin 30%-ni əvvəlcədən şirkətə ödəməli, qalan 70 %-ni isə sifariş etdiyim əşyalar mənzilimə gətirilərək yerinə quraşdırıldıqdan sonra ödəməli idim. Mən şərtlərlə razılaşaraq ödəməli olduğum məbləğin 30%-ni, yəni 1260 (bir min iki yüz altmış) manat pulu şirkətə ödədim.

Müqavilənin __________ bəndinə əsasən, cavabdeh tərəf sifariş olunan əşyaları 2 aydan sonra, yəni _________20___-ci il tarixində mənzildə lazımi qaydada quraşdıraraq mənə təhvil verməli idi və yalnız bundan sonra mən ödənişi tamamilə cavabdeh tərəfə ödəməli idim. Bu barədə sifariş blankında da qeyd edilmişdir.

Lakin cavabdeh tərəf müqavilə şərtlərini pozaraq, icranı gecikdirdi və sifariş etdiyim əşyalardan yalnız birini - dəmir qapını ___________20_______-cü il tarixində gətirib mənzildə quraşdırdı. Mən əvvəlcədən 1260 manat ödəmişdim, dəmir qarının qiyməti isə 1200 manat təşkil edirdi, bu səbəbdən mən heç bir vəsait ödəmək istəmirdim, lakin cavabdeh məndən ______ manat tələb etdi, çünki əvvəl ödədiyim vəsait iki sifariş üçün idi. Bundan sonra mən, tələb olunan _______ manat vəsaiti cavabdeh şirkətin bank hesabına köçürərək, bu barədə qəbz aldım.

Qapı quraşdırıldıqdan sonra məlum oldu ki, qapının keyfiyyəti və çeşidi sifarişə uyğun deyil. Belə ki, dəmir qapının daxili tərəfdən üzlüyü (obşivka) qüsurlu, rəngi isə sifariş etdiyim rəngdən fərqli idi. Mən rəngə güzəşt edərdim, lakin qapının digər qüsurları var idi ki, mən bunları qəbul edə bilməzdim. Qapı açıq halda dayanmırdı, açılıb bağlananda səs gəlirdi, kilidi çətinliklə, həm də tam olmayaraq bağlanırdı. Mən bu qüsurlar barədə cavabdeh şirkətin istehsalat üzrə rəhbərinə bildirdim. O, qüsurları aradan qaldıracağına söz verdi, lakin heç bir iş görülmədi.

Mənim müxtəlif qurumlara şikayət ərizələrimdən sonra cavabdeh tərəfin nümayəndələri _________20__-cü il tarixində dəmir qapını söküb fabrikə apardılar və həmin

günün axşamı gətirib yenidən quraşdırdılar. Lakin qüsurların bəzisi olduğu kimi yenə də qalırdı. Hazırda qapı açıq qalmır, üzlük sifariş etdiyim rəngdə deyil, qapı lazımi qaydada normal quraşdırılmamışdır. Mən qüsurlar barədə dərhal cavabdeh tərəfə məlumat verdim, onlar qüsurları aradan qaldıracaqlarına söz versələr də, bu günə qədər hec bir iş görməyiblər.

_________20___-cü il tarixində sifariş verdiyim əşyaların istehsal edildiyi fabrikdə oldum və şirkətin istehsalat rəhbərləri ilə birlikdə sifariş verdiyim taxta qapılara baxaraq gördük ki, taxta qapıların ikisinin hissələri yenicə laklanıb, digərləri ümumiyyətlə hazır deyil. Bu tarixdən 4 ay keçdikdən sonra ________20___-cü il tarixində fabrikdən mənə zəng edərək bildirdilər ki, saat 14.00-da taxta qapıları təhvil verəcəklər. Mən qapıları qəbul etmək istədim, lakin taxta qapıların keyfiyyəti və çeşidi qüsurlu idi. Belə ki, qapıların rəngi sifariş etdiyim rəngdən tamamilə fərqli idi. Bundan əlavə, qapılar mənim sifariş etdiyim materialdan hazırlanmamışdı və üstlüyü çox kobud idi. Məlum oldu ki, cavabdeh tərəfin nümayəndəsi mənə fabrikdə göstərdiyi qapıları deyil, tamamilə ayrı qapıları gətirmişdi. Beləliklə, qapıların üstlüyü qüsurlu olduğu, sifariş verilmiş materialdan hazırlanmadığı və rəngi isə sifariş etdiyim rəngdən tamamilə fərqli olduğu üçün taxta qapıları qəbul etməkdən imtina etdim, cavabdehdən razılaşdığımız keyfiyyətdə və rəngdə qapı verməsini tələb etdim. Bu günə qədər qapılar hələ də mənə təhvil verilməyib.

**Vurulmuş ziyan və hüquqi əsaslandırma**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 752-ci maddəsi podrat müqaviləsinin anlayışını verir və həmin maddədə göstərilir ki, podrat müqaviləsinə görə podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür. Mülki Məcəllənin 759.2-ci maddəsində deyilir ki, əgər sifarişçi tərəfindən müqaviləyə bilavasitə podratçının hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verilərsə, podratçı yalnız yerinə yetirilmiş işin haqqını tələb edə bilər, bu şərtlə ki, sifarişçinin həmin işlərə hansısa marağı olsun.

Cavabdeh müqavilə şərtlərini pozaraq sifariş etdiyim əşyaları çox gec təhvil vermişdir. Bundan əlavə, sifariş etdiklərim lazımi keyfiyyətdə və sifariş etdiyim xüsusiyyətlər çərçivəsində hazırlanmamışdır, bunlar isə onun öz öhdəliyini lazımınca icra etməməsi deməkdir..

Mülki Məcəllənin 442-ci maddəsinə əsasən, "Öhdəliyin icra edilməməsi dedikdə, onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür".

Həmin Məcəllənin 443.1-ci madəsində deyilir ki, öhdəliyi icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür ( Mülki Məcəllənin 21.1-ci maddəsi).

Cavabdehin təqsiri üzündən mənim mənzilimdə aparılan təmir işlərinin texnoloji ardıcıllığı pozulmuş, işin ümumi keyfiyyətinə və tamamlanmasına xələl gəlmişdir. Divar kağızı, elektrik, döşəmə işləri və santexnik avadanlıqların quraşdırılması işi dayanmış, təmir ustaları ilə aramızda narazılıqlar yaranmışdır.

Belə ki, cavabdehlə olan razılaşmanın (sifarişin) şərtlərinə görə, sifariş etdiyim əmlaklar, yəni dəmir qapı _________20___ il tarixində, taxta qapılar isə _______ 20___il tarixində mənə təhvil verilməliydi və bundan sonra digər ustalar divar kağızı, döşəmə və santexnik işlərini görməli idilər. Lakin ustalar bu günə qədər işlərini yerinə yetirə bilmirlər, çünki qapılar hələ də qoyulmayıb. Ustalar başqa işlərindən məhrum olduqlarına görə hazırda görəcəkləri işin dəyərini artırmış və əvvəl razılaşdığımız qiymətlə müqayisədə onlara 1000

(min) manat artıq pul ödəmək məcburiyyətində qalmışam. Ustalara əvvəl razılaşdırılmış qiymətdən artıq ödəməli olduğum 1000 manatı əldən çıxmış fayda kimi qiymətləndirirəm və belə hesab edirəm ki, Mülki Məcəllənin 21.2-ci maddəsinin tələbinə əsasən, 1000 manat pul da əldən çıxmış fayda kimi cavabdeh tərəfindən mənə ödənilməlidir (müqaviləyə əlavə razılaşma və ödəniş haqqında sübut iddia ərizəsinə əlavə edilir).

Bundan başqa, hüquqlarımın müdafiəsi ilə əlaqədar "________" vəkil bürosu ilə müqavilə bağlayaraq hüquqi xidmət üçün 1000 (min) manat pul ödəmişəm ki, bu da real zərər kimi cavabdeh tərəfindən mənə ödənilməlidir.

Cavabdeh tərəfindən müqavilə öhdəliyinin yerinə yetirilməməsi, dəmir qapının bir dəfə quraşdırılıb, yenidən sökülərək təkrar quraşdırılması, təkrar quraşdırıldıqdan sonra yenə də qüsurlu qalması, cavabdehin nümayəndəsinin fabrikdə mənə sifariş etdiyim taxta qapıları göstərdiyi halda, mənzilimə tamamilə başqa qapıları gətirməsi məni əsəb sarsıntısı keçirməyə və mənəvi iztirablara məruz qoymuşdur. Bir tərəfdən mənzilimin təmirinin ləngiməsi, digər tərəfdən vaxtında işə başlaya bilmədiklərinə görə mənzilimdə işləyəcək ustaların təmir qiymətlərini qaldırması, ailə üzvlərimin yeni mənzilə köçmək istəklərinin reallaşmaması çəkdiyim mənəvi iztirabları daha da kəskinləşdirmişdir. Əsəb gərginliyindən dəfələrlə qan təzyiqim qalxmış və həkimlərə müraciət etmək məcburiyyətində qalmışam (bununla bağlı müvafiq tibbi sənədlər iddia ərizəsinə əlavə edilir). Cavabdeh tərəfin təqsirli hərəkəti nəticəsində mənə vurulan mənəvi zərəri 5000 (beş min) manat dəyərində qiymətləndirirəm.

**Tələb**

Yuxarıda göstərilənləri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21, 385.1, 427.3, 442, 443.1, 445, 448.2, 752.1, 752.2 və 759.2-ci maddələrinin tələblərini rəhbər tutaraq məhkəmədən

**xahiş edirəm:**

1. Cavabdeh "____________" şirkətinə ödədiyim __________ manatdan .......... manat və hüquqi xidmət üçün ödədiyim 1000 (min) manat, cəmi _________ manat məbləğində real zərərin,
2. mənzilimdə işləyəcək ustalara razılaşdırılmış məbləgdən artıq ödəməli olduğum1000 (min) manat məbləğində əldən çıxmış faydanın,
4. mənəvi zərərin əvəzinin ödənilməsi üçün 5000 (beş min) manat məbləğində vəsaitin,
cəmi ___________**(_______________) manat pulun** cavabdeh şirkətin bank hesabından tutularaq mənə ödənilməsi barədə qətnamə qəbul edəsiniz.

İddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir.

1. İddia ərizəsinin surəti
2. Sifariş blanklarının surəti (2 sifarış üzrə 6 vərəq)
3. Podrat müqaviləsi (4 vərəq)
4. Dövlət orqanlarına yazılan şikayət ərizələrinin surəti (11 vərəq)
5. Dəmir qapının qüsuru barədə tərtib edilmiş aktın surəti
6. Mənzilimdə aparılacaq təmir işlərinin gecikməsinə görə ustalara əlavə olaraq ödəməli olduğum 1000 manat ödəniş barədə razılaşma müqaviləsi və ödəmə sənədi (3 vərəq)
7. Cavabdehin bank hesabına keçirdiyim ödəniş barədə bank tərəfindən verilən qəbz
8. Vəkil bürosuna ödənilmiş qonorar barədə sənədlər (6 vərəq)
9. Dövlət rüsumunun ödənilməsi barədə qəbz
10. Şəxsiyyət vəsiqəsinin surəti
11. Tibbi sənədlər (7 vərəq)

İmza: ____________________  __________oğlu / iddiaçı
Tarix: ____________________